**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2025.1.100**

**ELMAR BAXŞƏLİYEV**

# BÜLÖVQAYA VƏ UBEYD KERAMİKASININ MÜQAYİSƏLİ TƏHLİLİ

*Bülövqayada 2024-cü ildə aparılan qazıntılar nəticəsində, qədim insanların məskunlaşma xüsusiyyətləri və onların ictimai-iqtisadi fəaliyyəti haqqında ətraflı məlumat verən materiallar əldə edilmişdir. Eneolit dövrünə aid Bülövqaya yaşayış yerindən aşkar edilmiş boyalı keramika nümunələrinin Mesopotamiyanın Ubeyd mədəniyyəti ilə müqayisəli təhlili Bülövqaya və Ubeyd keramikası arasında forma və bəzəmə motivlərinin oxşar olduğunu ortaya çıxarmışdır. Araşdırmalar Eneolit dövründə Cənubi Qafqaz və Yaxın Şərq arasında mədəni inteqrasiyanın səviyyəsini və istiqamətini müəyyənləşdirməyə imkan verir. Keramika nümunələrinin insanların gündəlik məişət tələbləri üçün hazırlandığı və onların sosial kimliyi ifadə etdiyini düşünməkdəyik. Bülövqaya keramikasında Ubeyd mədəniyyətinə yaxın estetik və simvolik xüsusiyyətlər göstərən, dalğalı xətlər və üçbucaq qrupları ilə bəzədilən nümunələr, bu mədəniyyətlər arasında dərin mədəni əlaqələrin olduğunu göstərir.*

**Açar sözlər**: *boyalı keramika, Bülövqaya, Ubeyd tipli keramika, Yaxın Şərq, Mesopotamiya.*

**Giriş.** Bülövqaya yaşayış yerində 2024-cü il qazıntı mövsümündə aşkar edilmiş keramika nümunələri, Yaxın Şərq mədəniyyətləri ilə qarşılıqlı əlaqələrin yenidən dəyərləndirilməsinə imkan yaratmışdır. Keramika nümunələrinin bəzəmə motivi və tipoloji qrupları dövrün sosial-iqtisadi xüsusiyyətlərini əks etdirən zəngin maddi mədəniyyət nümunələridir. Bülövqaya keramikası ilə Ubeyd mədəniyyətinə aid keramikanın müqayisəli təhlili, regionlararası əlaqələrin və mədəni inteqrasiyanın miqyasını anlamaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, Yaxın Şərqdə Ubeyd dövrü, oturaq həyata keçidin kütləviləşməsi və mədəniyyətin formalaşmasında mühüm bir mərhələ olmuşdur. Bu dövrün keramika formaları və bəzəmələrindəki müxtəliflik, oturaq həyatın yayılması ilə keramika istehsal texnologiyalarının necə inkişaf etdiyini və hansı üsullarla formalaşdığını müəyyən dərəcədə açıqlayır. Bu keramikanın forma və bəzəmə motivləri Cənubi Qafqazın Eneolit dövrü mədəniyyətinə təsir edən faktorlar arasındadır. Forma və naxış motivlərindəki bənzərlik bu keramika nümunələrinin Cənubi Qafqazda formalaşan Eneolit mədəniyyətinə aid keramikaya təsir etdiyini göstərir. Bülövqaya ilə Ubeyd keramikasının müqayisəli təhlili bu təsirlərin necə və hansı yollarla inkişaf etdiyini üzə çıxarmağa imkan verir. Bu tədqiqat işində Bülövqaya və Ubeyd keramikalarının forma və bəzəmə motivləri müqayisə edilmişdir. Məqsədimiz hər iki mədəniyyətin keramika məmulatının istehsal texnologiyasını araşdırmaq və bu texnologiyaların sosial məzmununu üzə çıxarmaqla, regionlararası mədəni mübadilələrin və qarşılıqlı təsirlərin əhəmiyyətini ortaya qoymaqdır.

**Bülövqaya yaşayış yeri.** Bülövqaya yaşayış yeri, Babək rayonunun Göynük kəndi yaxınlığında, dəniz səviyyəsindən 1429 metr yüksəklikdə [5, s. 8], Sarısu çayının yatağından isə təxminən 70 metr yuxarıda, bir yamac üzərində yerləşir. Yaşayış yerinin mövqeyi, qədim insanların köçəri heyvandarlıq fəaliyyətləri ilə məşğul olmasına uyğunluğu ilə yanaşı, su mənbəyinə yaxınlığı ilə də əlverişlidir. Yaşayış yerinin topoqrafik quruluşu, şimal-cənub istiqamətində meylli bir ərazidə formalaşıb. Görünür, bu coğrafi mövqe qədim sakinlərinin sosial və iqtisadi fəaliyyətlərini ilə bağlı olmuşdur. Arxeoloji tədqiqatlar zamanı Bülövqaya yaşayış yerində məskunlaşmanın xüsusiyyətlərinə dair dəyərli məlumatlar əldə edilmişdir. Arxeoloji qazıntılar nəticəsində, yaşayış yerinin bir təbəqədən ibarət olduğu, lakin iki fərqli mərhələdən keçdiyi müəyyənləşdirilmişdir. Qazıntılar zamanı birinci təbəqənin əsasən qəhvəyi rəngli torpaqdan ibarət olduğu müşahidə olunmuşdur. Burada dördbucaq formalı evlərin və məişət obyektlərinin izləri aşkar edilmişdir. Birincidən fərqli olaraq, ikinci təbəqə açıq rəngli küllü torpaq laylarından ibarətdir. Bu təbəqə ocaq yerlərinin zənginliyi ilə seçilir. Bu, insanların fəaliyyətini daha geniş şəkildə öyrənməyə imkan verir. Burada həyat fəaliyyətlərinin

və iqtisadi ehtiyacların necə dəyişdiyini izləmək mümkündür. Tapıntılar həm sosial həyatın izlərini, həm də icmanın gündəlik tələblərinə uyğun yerli iqtisadi quruluşu əks etdirir. Burada aparılan araşdırmalar qədim yaşayış yerində məskən salmış insanların həyat tərzini və məşğuliyyətini tədqiq edənlər üçün əhəmiyyətli tapıntılar ortaya çıxarmışdır.




**Şəkil 1.** Bülövqayanın boyalı və darama naxışlı keramikası.

**Keramika məmulatı.** Bülövqayada aparılan qazıntılar zamanı aşkar edilmiş 8507 keramika parçası, dövrün ictimai quruluşu və keramika istehsalı haqqında geniş məlumatlar təqdim edir. Bu nümunələrin 1639 ədədi forma verən keramika olub, əsasən dörd qrupa bölünür. Aşkar olunmuş keramika əsasən çəhrayı, boyalı, qəhvəyi və qara-boz rəngli qabların parçalarından ibarətdir. Fikrimizcə, aşkar edilmiş nümunələr yalnızca gündəlik ehtiyacları qarşılamaq üçün deyil, eyni zamanda onlar üzərindəki bəzəmələr sosial kimliyi ifadə etmənin yolu kimi də istifadə olunmuşdur. Xüsusilə boyalı keramikadakı naxış və formaların dəyişmədən qorunması, bunların müəyyən sənətkar qruplarının əlində olduğu fikrini yaradır. Keramikanın müəyyən bir hissəsində müşahidə edilən saman qarışığı izləri, yerli xammallardan istifadəyə işarə edir və bu texnoloji üsulun həmin dövrdə geniş istifadə olunduğunu deməyə əsas verir. Bu texniki detallar yalnız istehsal prosesini deyil, həm də sənətkarların bilik və bacarıqların müəyyən üsulu kimi özünü göstərir. Keramika nümunələrinin nazik gil təbəqələrinin üst-üstə qoyularaq düzəldilməsi və daraq bənzəri alətlərlə (şəkil 1, 4, 5) düzəldilməsi naxış effekti yaratmaqla bu texnikanın həmin dövrün keramika istehsalında tətbiq olunduğu aydın şəkildə ortaya çıxarır. Bəzi keramika nümunələrinin bu cür işlənməsi yalnız estetik bir detal deyil, eyni zamanda xüsusi formalarda tətbiq olunan və zərif işlənmiş sənət üslubunu əks etdirir. Bu cür detallı işçillik, cəmiyyət daxilində xüsusi bir sənətkar qrupunun ustalıq qazandığının göstəricisi ola bilər. Qabların oturacaq formalarının düz, yuvarlaq və ya çıxıntılı formalarda müxtəlifləşməsi, bu dövrdə istifadə olunan qabların müəyyən standartlara görə istehsal edildiyini və bu forma seçimlərinin onların yarım köçəri həyat tərzinə uyğunlaşdırıldığı fikrini doğurur. Beləliklə, Bülövqayada istehsal olunan keramika formaları və naxışları, o dövrdə sənətkar qrupların texniki bilik və sənət ənənələri ilə cəmiyyətə təsirini göstərən vacib arxeoloji sübutlar ola bilər.

**Boyalı keramika.** Boyalı keramikanın təhlili, Ubeyd keramikası ilə Bülövqayadan aşkar edilmiş keramikanın istehsalı ənənələri və bəzəmə motivlərinin diqqətə dəyər şəkildə paralelliyini üzə çıxarmışdır. Naxışların sarı və ya bej rəngli astar üzərinə qəhvəyi və qara boya ilə tətbiq edilməsi, Ubeyd mədəniyyətinin tipik rəng palitrasını xatırladır. Eyni şəkildə, qırmızı astar üzərinə qəhvəyi və ya qara boyanın istifadəsi də Ubeyd keramika istehsalında müşahidə olunan geniş yayılmış bir texnikadır. Bu tip astar və boyama tərzləri, Ubeyd ilə Bülövqaya keramikasının mədəni bənzərliyinə işarə edir. Bülövqaya keramikasının bəzəmə motivləri, Ubeyd mədəniyyəti ilə eyni xüsusiyyətləri paylaşmışdır.

Sınıq xətlər (şəkil 1, 6), üst-üstə yerləşdirilmiş üçbucaqlar, torlu naxış, sünbülşəkilli və başqa motivli naxışlar (şəkil 1, 7) Ubeyd mədəniyyətində də tez-tez rast gəlinən bəzəmə növləridir. Bu motivlərin hər iki bölgədə də eyni keramika qrupunda, mətbəx və süfrə qablarında istifadə edilməsi Bülövqaya keramikasının yalnızca Ubeyddən təsirləndiyini deyil, eyni zamanda bu mədəniyyətlə ortaq simvolik dəyərləri paylaşdığını da göstərir. Xüsusilə üçbucaq, ağac və torşəkilli motivlərinin geniş istifadəsi (şəkil 1, 1, 2, 3), Ubeyd mədəniyyəti ilə Bülövqayanın ictimai struktur və simvolik anlayışında bənzər mesajlar daşıya biləcəyini düşündürür. Bu baxımdan, Bülövqaya keramikası, Ubeyd mədəniyyəti ilə Cənubi Qafqaz arasında köklü bir mədəni əlaqəni sübut edən, məna baxımından zəngin bir arxeoloji tapıntı qrupu olaraq önə çıxır. Ubeyddən ilham alan, lakin yerli üslubla yenidən istehsal edilən bu keramikalar, Bülövqaya'nın, Cənubi Qafqazda Ubeyd təsirlərini əks etdirən əhəmiyyətli bir yaşayış yeri olduğunu təsdiq edir.




**Şəkil 2.** Bülövqayadan aşkar edilmiş bəzi Ubeyd tipli keramika tipləri.

Son qazıntı mövsümündə aşkar edilmiş keramikanın, forma və bəzəmə motivlərinə görə, Yaxın Şərqin əsas mədəniyyətlərindən biri olan Ubeyd mədəniyyətinə aid keramika ilə yaxın oxşarlıqlar göstərməsi Cənubi Qafqaz ilə Mesopotamiya arasında mədəni əlaqələrin koloniyalar vasitəsi ilə mövcudluğunu iddia edən əvvəlki tədqiqatçıların fikirlərini dəstəkləyir [4, s. 149; 5, s. 17-18]. Bülövqaya yaşayış yerində aparılan qazıntılar zamanı aşkar olunan, açıq qəhvəyi və sarı rəng arasında dəyişən rəng tonu üzərinə qəhvəyi və ya qara rənglə çəkilmiş ornamentlər Ubeyd mədəniyyəti üçün xarakterikdir və Ubeyd keramikasının bölgədə yayılmasını təsdiq edən dəlillərdən biridir. Bu

tip keramika xüsusilə e. ə. 5-ci minillikdə Naxçıvanda yayılmış və Ubeyd mədəniyyətinin yerli bir variantı kimi qiymətləndirilmişdir [5, s. 8]. Keramika üzərində piktoqrafik analizlər aparılmamışdır. Karbon analizlərinin nəticələrinə görə demək olar ki, bu tip keramika e.ə. 5-ci minilliyin ilk yarısı və ortalarında Naxçıvana yayılmışdır [5, s. 8]. Bülövqayadan aşkar edilən keramikanın müqayisəli tədqiqi, Naxçıvanda formalaşan yerli mədəniyyətin Ubeyd mədəniyyəti ilə olan əlaqələrini öyrənmək baxımından önəmlidir. Bu araşdırma, bölgənin tarixi və mədəni əhəmiyyətinə dair yeni bilgilər təqdim edə bilər.

**Keramika formasında izlənən bənzərliklər.** Bülövqaya keramikası ilə Ubeyd dövrü keramikası arasında yaxın forma bənzərlikləri mövcuddur. Tədqiqatlar göstərir ki, hər iki mədəniyyətdə də konik, qabarıq və bikonik gövdəli çanaqlar geniş şəkildə istifadə edilmişdir. Xüsusilə Bülövqayada aşkar olunan konik formalı və orta hissəsi xaricə doğru çıxıntılı çanaqlar, Yaxın Şərq mədəniyyətlərinin xarakterik keramika xüsusiyyəti olmuşdur. Bu tip keramika (şəkil 2, 1, 2) Ubeyd dövrünə aid keramika formaları ilə mühüm bir bənzərlik göstərir [6, fig. 4, 10; 7, fig. IV.28, 204; 11, fig. 54, 4; 8, fig. 7, 1, 3; 121, fig. 19, 3-4].

Ubeyd mədəniyyəti yaşayış yerlərində tez-tez rast gəlinən xaricə qatlanmış ağız kənarlı və qabarıq gövdəli keramika, Bülövqaya yaşayış yerindəki keramika formasında da müşahidə edilmişdir (şəkil 2, 6). Bu formalar Tell Agab [9, fig. 2, 4], Yarım Təpə II [12, s. 33-34; 8, fig. 6-8] və Tell Abada kimi Ubeyd mədəniyyəti yaşayış yerlərində də məlumdur (10, s. 266-528). Bülövqayada aşkar edilmiş kasa və çölmək formalı qabların da bənzərləri Ubeyd mədəniyyətindən məlumdur. Bülövqayada tapılmış qısa silindrik boyunlu və qabarıq gövdəli çölmək tipli qablar (şəkil 2, 3, 4, 5, 7, 8, 9, 10 ) Ubeyd mədəniyyətinə aid yaşayış yerlərindəki formalarla bənzərlik göstərir. Bu forma, Ubeyd dövrü çanaq-çölməklərin xarakterik xüsusiyyətlərindən biri kimi qəbul edilir [2, s. 91].

**Nəticə.** Bülövqaya və Ubeyd keramikasının təhlili göstərir ki, Bülövqaya yaşayış yerindən aşkar edilmiş keramika nümunələri ilə Yaxın Şərqin Ubeyd mədəniyyəti arasında mövcud olan mədəni əlaqələr düşünüləndən daha sıx olmuşdur. Aparılan müqayisələr nəticəsində, Bülövqaya keramikasının həm forma, həm də bəzəmə formaları baxımından Ubeyd dövrü keramikası ilə yaxın bənzərliyə malik olduğu aydın şəkildə özünü göstərir. Bülövqayadan əldə edilən keramika nümunələrinin formaları (konik gövdəli kasalar, qısa boyunlu və qabarıq gövdəli çölməklər və s.) Ubeyd dövrünün tipik formaları ilə paralellik təşkil edir. Bu formadakı oxşarlıq, xüsusilə Bülövqaya və Ubeyd mədəniyyətləri arasında inteqrasiyaların və mədəni mübadilənin mümkünlüyünü irəli sürmək üçün əsaslı sübutlar verir. Bülövqaya keramikasının bəzəmələri üzərində aparılan təhlillər göstərir ki, burada müşahidə olunan rəng palitrası və simvolik motivlər (dalğalı xətlər, üçbucaq qrupları və digər ornamentlər) Ubeyd mədəniyyətinin simvolik üslubları ilə oxşarlıq təşkil edir. Bu motivlərin hər iki mədəniyyətdə geniş yayılması, mədəni inteqrasiya və qarşılıqlı təsirlərin vizual və semiotik sübutu kimi dəyərləndirilə bilər. Tədqiqatlar Bülövqayadakı keramika istehsalının, Ubeyd mədəniyyətindən təsirlənmiş olması ehtimalını gücləndirir. Bu bağlılıq, Cənubi Qafqaz ilə Mesopotamiya arasında mədəni əlaqələrin nə qədər dərin olduğunu nümayiş etdirir. Aparılan araşdırmalar Eneolit dövründə bu regionlarda mədəniyyətlərin necə inkişaf etdiyini və qarşılıqlı təsirə məruz qaldığını müşahidə etməyə imkan yaradır. Araşdırmalara əsaslanaraq deyə bilərik ki, Bülövqaya keramikası, Cənubi Qafqazın mədəni inkişafında Ubeyd mədəniyyəti ilə əlaqələrin sübutu kimi əhəmiyyətli arxeoloji materiallardır. Bu tədqiqatların, gələcəkdə Bülövqaya və Ubeyd mədəniyyəti arasındakı qarşılıqlı əlaqələrin daha əhatəli şəkildə öyrənilməsində istiqamətverici olacağını deyə bilərik.

## ƏDƏBİYYAT

1. Bahşaliyev V., Ceylan N., Bahşaliyev E., Hasanova H. Tumbul Tepe'de yapılan arkeolojik kazılar bağlamında Güney Kafkasya'da Sioni tipi çanak çömleğin değerlendirilmesi // TUBA-AR, 2024, № 1, s. 1-15.

2. Esin U., Arsebük G. Tülintepe kazısı 1974 / Ankara: Keban Projesi 1974-1975 Çalışmaları. Ankara, 1982, s. 119-134.
3. Akkermans P.A Late Neolithic and Early Halaf Village at Sabi Abyad, Northern Syria // Paléorient, 1987, v. 13, № 1, pp. 23-40.
4. Бахшалиев В.Б. Археологические раскопки на поселении Кюльтепе I // Российская археология, 2022, № 1, с. 139-152.
5. Бахшалиев В., Марро К., Бертон Р., & Оранж М. (2024). Новые данные о связях древних поселенцев Нахчывана с Ближним Востоком // Российская археология, 2024, № 1, с. 7-21.
6. Akkermans P. The Prehistoric Pottery of Tell Sabi Abyad: Excavations at Tell Sabi Abyad Prehistoric investigations in the Balikh Valley, northern Syria // eHRAF, Oxford, 1989, pp. 77-214.
7. Amirov Sh. The Morphology of Halafian painted pottery From Yarim Tepe II, And the Process of Ubaidian Acculturation / II Workshop on Late Neolithic Ceramics in Ancient Mesopotamia: pottery in context, Monografies del MAC 1 / Ed. Anna Gómez-Bach, Jörg Becker and Miquel Molist. Barcelona, 2018, pp. 15-23.
8. Davidson T. E., Watkins T. Two Seasons of Excavation at Tell Aqab in the Jezirah, N.E. Syria // Iraq, 1981, v. 43/1, pp. 1-18.
9. Jasim S.A. Excavation at Tell Abada, Iraq. Chicago: University of Chicago, 2021, 588 p.
10. Mallowan M. E. L., Cruikshank J. R. Excavations at Tall Arpachiyah, 1933 // Iraq, 1935, v. 2/1, pp. 1-178.
11. Merpert N.Y., Munchaev R.M. The Earliest Levels at Yarim Tepe I and Yarim Tepe II in Northern // Iraq, 1987, v. 49, pp. 1-36.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: elmarbakhshaliev@gmail.com***

**Elmar Bakhshaliyev**

## COMPARATIVE ANALYSIS OF UBAID AND BÜLÖVKAYA CERAMICS

As a result of excavations conducted in 2024 in Bülövkaya, materials were identified that provide comprehensive information about the characteristics of the settlement of ancient peoples and their socio-economic activities. A comparative analysis of samples of painted ceramics discovered at the Chalcolithic settlement of Bülövkaya with the Ubaid culture of Mesopotamia revealed the similarity of the form and decorative motifs of Bülovkaya and Ubaid ceramics. Research allows us to determine the level and direction of cultural integration between the South Caucasus and the Middle East during the Chalcolithic period. We think that ceramics created for people's everyday needs also express their social identity. These examples of Bülövkaya pottery, which exhibit aesthetic and symbolic characteristics akin to those of the Ubaid culture, and are embellished with wavy lines and clusters of triangles, demonstrate the profound cultural connections that exist between these two cultures.

**Keywords:** *painted pottery, Bülövkaya, Ubaid type ceramics, Middle East, Mesopotamia.*

**Эльмар Бахшалиев**

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ КЕРАМИКИ УБЕЙДА И БЮЛОВГАЯ

В результате раскопок, проведенных в 2024 году в Бюловгая, были выявлены материалы, давшие подробную информацию об особенностях расселения древних людей и их социально-экономической деятельности. Сравнительный анализ образцов расписной керамики, обнаруженных в поселении Бюловгая эпохи энеолита, с убейдской культурой Месопотамии выявил сходство формы и мотивов декора керамики Бюловгая и Убейда. Исследования позволяют определить уровень и направление культурной интеграции между Южным Кавказом и Ближним Востоком в эпоху энеолита. Мы считаем, что образцы керамики, созданные для повседневных бытовых нужд людей, также выражают его социальную идентичность. Эти образцы керамики Бюловгая, обладающие эстетическими и символическими чертами, близкими к культуре Убейд, украшенные волнистыми линиями и группами треугольников, показывают, что между этими культурами существуют глубокие культурные связи.

**Ключевые слова:** *расписная керамика, Бюловгая, керамика убейдского типа, Ближний Восток, Месопотамия.*

*(Tarix elmləri doktoru, professor Abbas Seyidov tərəfindən tədqim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 27.01.2025**
**Son variant 26.02.2025**